

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 193 (24.330)

*19 oktyabr 2023-cü il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## 2023-2024-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. 2023-2024-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbasquliyeva Səmayə İsmayıl qızı
Abbasov Ramin Xəqani oğlu
Abbasova Bənövşə Ramil qızı
Abbasova Rəşidə Baba qızı
Abdulayeva Sabrina Royal qızı
Abdulayev Emil Rasim oğlu
Abdullayev İsmayıl Eltəkin oğlu
Abdullayeva Aytac Mehman qızı
Abdullayeva Səbinə Sərdar qızı
Ağadadaşova Ayla Azad qızı
Ağayev Maksim Maqsud oğlu
Ağayeva Aysu Elgün qızı
Aslanova Leyla Səyavuş qızı
Bəylərli Hafiz Səxavət oğlu
Cəfərov Emil Adil oğlu
Dədəyeva Telli Bilal qızı
Ehtibarova Gülbikə Səfa qızı
Əhmədova Nurgül Nəsrəddin qızı
Əhmədzadə Leyla Ramiz qızı
Əhmədzadə Rəsul Səlim oğlu
Əliquliyeva Ləman Rövşən qızı
Əliyev Seymur Hikmət oğlu
Əliyeva Fatimə Tağı qızı
Əliyeva Məhin Arif qızı
Əliyeva Solmaz Tağı qızı
Əlizadə Sahil Eyyub oğlu
Əsgərzadə Ömər Ruslan oğlu
Əzimova Günay Elistan qızı
Əzizova Mələkxanım İlqar qızı
Fərəcova İnci Əmmar qızı
Hacıyev Arif Nəriman oğlu
Həsənzadə Fəxri Anar oğlu
Həsənzadə Kubra Maqsud qızı
Həsənzadə Nihad Rəşad oğlu
Hüseyn Saud Vasif oğlu
Hüseynli Hüseyn Zahid oğlu
Hüseynli Səkinə Ramin qızı
Hüseynov Anar İsmayıl oğlu
Hüseynov Əli Vasif oğlu
Hüseynova Xədicə Səbuhi qızı
Hüseynova Zəhra Mahir qızı
Hüseynova Zəkiyyə Toğrul qızı
Xankişili Səlimə Elvin qızı
Xəlilova Səfurə Arif qızı
İsayev Hüseyn Vasif oğlu
İsayev Şövqi Əli oğlu
İskəndərov Alxan Azər oğlu
İsmayıllı Sevil Taleh qızı
Kərimli Samir Azər oğlu
Qarayeva Fatimə İlham qızı
Qasımlı Zəhra Fuad qızı
Quliyev Fərid Zaur oğlu
Quliyeva Ləman Sənan qızı
Quluzadə Ülkər Eldəniz qızı
Qurbanov Anar Arzu oğlu
Qüdrətli Nihad Rəşad oğlu
Mahmudlu Fərid Elxan oğlu
Maksimova Aminə Sadir qızı
Mehdiyev Seyfulla Cəlal oğlu
Məhərrəmli Turani Yusif oğlu
Məmmədli Əli Mayis oğlu
Məmmədli Təhminə Oktay qızı
Məmmədov Ayaz İqbal oğlu
Məmmədov Ayxan Vüqar oğlu
Məmmədov İslam Yalçın oğlu
Məmmədov Nurlan Rəşad oğlu
Məmmədova Fatimə Saleh qızı
Mənsumova Fatimə Maarif qızı
Miryusifzadə İsmayıl Yalçın oğlu
Mirzəyeva Gülüstan Tahir qızı
Muxtarlı Nihad Bayram oğlu
Musayev Elvin İlqar oğlu
Mustafayev Rəsul Tərlan oğlu
Mütəllimov Rəvan Azər oğlu
Nəsibov Zahid Ramil oğlu
Nəzərov Cavid Mehman oğlu
Niftəliyev Əli İlham oğlu
Nuriyeva Aynurə Samir qızı
Nurulu Mahir Vidadi oğlu
Ömürova Səbinə Qəfər qızı
Payızova Nuranə Elşən qızı
Rəcəbova Aysu Yusif qızı
Rəhimli Rəna Coşqun qızı
Rəhimli Vaqif Müşviq oğlu
Rəhimova Fidan Fuadovna
Rüstəmova Aytac Bəxtiyar qızı
Rüstəmzadə Əzizə Rəşad qızı
Sadıxlı Zəhra Şahin qızı
Səfərova Nəzrin Cahangir qızı
Səlimova Aysel Anar qızı
Səmədli Nicat Sərdar oğlu
Süleymanov Mirzə Elman oğlu
Şəkizadə Banuçiçək Ədalət qızı
Şirin Türkan Dəyanət qızı
Şükürlü Aygün Ramil qızı
Şükürlü Hicran Zaur qızı
Tağıyeva Aqilə Vüqar qızı
Tağıyeva Zöhrə Müşvüq qızı
Verdiyeva Fəridə Faiq qızı
Yediyarlı Nərgiz Əslan qızı
Zamanlı Əli Ceyhun oğlu
Zeynalov Kamran Natik oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 18 oktyabr 2023-cü il*

## Ulu Öndər Heydər Əliyev gənclər siyasətinin Azərbaycan modelinin yaradıcısıdır

*Azərbaycan Respublikası Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və NAYORA-nın təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar "Heydər Əliyev və gənclər siyasətinin Azərbaycan modeli" mövzusunda konfrans keçirilib. Əvvəlcə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ziyarət olunub, abidə önünə gül dəstələri qoyulub.*



Sonra konfrans "Gənclik" Mərkəzində Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməklə başlayıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək bildirib ki, dahi şəxsiyyət Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycan gəncliyinin gələcək müstəqillik mərhələsi üçün yetişməsinə misilsiz töhfələr verən Ulu Öndər 1993-cü ildə xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra da ölkəmizdə gəncliyin inkişafını diqqətdə saxlamış, gənclərlə iş dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Həmin dövrdə gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlər davamlı xarakter almış, yaradıcılıq baxımından xüsusi istedadı və idman sahəsində yüksək nailiyyətləri olan gənclərə göstərilən diqqət gücləndirilmişdir. Ümummilli Lider 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyini yaratmaqla müasir gənclər və idman siyasətinin əsasını qoymuş, 1996-cı il fevralın 2-də özünün iştirakı ilə müstəqil Azərbaycan Respublikası gənclərinin Birinci Forumu keçirilmiş, respublika Prezidentinin 1997-ci il 2 fevral tarixdə imzaladığı Fərmana əsasən həmin tarix Azərbaycan Gəncləri Günü elan edilmişdir. Qeyd olunub ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti nəticəsində Azərbaycan gəncliyi yüksək inkişaf mərhələsini yaşayır. Ulu Öndərimizin müəyyənləşdirdiyi bu siyasət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməklə bugünkü gənclik vətənpərvər, dövlətçiliyə sədaqət, xalqa təmənnasız xidmət ruhunda yetişdirilir.



Konfransda çıxış edən qonaqlar sırasında Azərbaycan Respublikası Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri Həmid Nəsibov, Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru vəzifəsinin icraçısı Qədir Xəlilov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva, ARGTMŞ-nin sədri Azər Əliyev mövzu ətrafında fikirlərini bildiriblər.

Sonda Naxçıvan Dövlət Filarmoniyası tərəfindən Ulu Öndərin sevdiyi və Ona həsr olunmuş mahnılardan ibarət konsert təqdim olunub.

**Aidə İBRAHİMOVA**

## Müstəqilliyimiz ən ali dəyərimizdir



"Naxçıvan" Universitetində 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunan tədbir keçirilib. Tədbirdə öncə Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycanın Şərqdə və İslam dünyasında öz müstəqilliyini elan edən ilk demokratik və dünyəvi dövlət olduğunu qeyd edən "Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov bildirib ki, 1918-ci ildə öz dövlət müstəqilliyini elan edən müasir Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr tarixli Konstitusiya aktı ilə müstəqilliyini yenidən bərpa edib.

Ulu Öndərin xalqın istəyi ilə Azərbaycana qayıdışı və müstəqilliyimizin təhlükə altına düşməsinin qarşısını alması, xalqımız üçün misilsiz xidmət göstərməsi barədə auditoriyaya geniş məlumat verən Anar Kazımov vurğulayıb ki, Ulu Öndər tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir.

Qeyd olunub ki, "Heydər Əliyev İli"ndə Azərbaycan Bayrağını Xankəndidə, Xocalıda ucaldan dövlətimizin başçısı Ümummilli Liderin 20 il bundan öncə ona olan inamını, etimadını doğrultdu, verdiyi bütün vədləri yerinə yetirdi. Artıq biz qalib xalqın nümayəndələri, qalib dövlətin vətəndaşlarıyıq!

Daha sonra "Naxçıvan" Universitetinin Ümumi tarix və beynəlxalq münasibətlər kafedrasının dosenti Emin Şıxəliyev və universitetin Tarix ixtisası üzrə II kurs tələbəsi Uğur Bağırovun çıxışları dinlənilib. Çıxışlarda Azərbaycan Xalq Cümhuriyyəti, Sovet işğalı və Azərbaycanın müasir dövr tarixlərinə ekskurs edilib, müstəqilliyin ilk illərində ölkəmizin üzləşdiyi təhlükələrə nəzər salınıb. Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri, 2003-cü ildən başlayaraq Prezident cənab İlham Əliyevin rəhbərliyində ölkəmizin əldə etdiyi uğurlar haqqında məlumat verilib.

Tədbirdə Müstəqilliyin Bərpası Gününə həsr olunan videoçarx nümayiş olunub. Tələbələr tərəfindən vətənpərvərlik mövzusunda mahnılar ifa edilib, şeirlər səsləndirilib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

2023-cü il “Heydər Əliyev İli”dir

# “Müasir, müstəqil, qüdrətli Azərbaycan” adlı abidəni seyr etdikcə...



“Müstəqilliyimiz əbədidir”, Rəssam-Cavid İsmayılov

*Statusundan, vəzifəsindən, kimliyindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, hər bir azərbaycanlı qorumağa, yaşatmağa çalışır özünəməxsusluğu, fundamentallığı ilə dünyada qibtə olunan, sevilən, dosta sevinc, düşmənə gözdağı verən bu möhtəşəm, sanballı abidəni. Dahilər dahisi, siyasət sərrafı, fenomen şəxsiyyət, böyük azərbaycanlı Heydər Əliyevin gecəsini gündüzünə qataraq müxtəlif təzyiqlərə, təqiblərə, həyati təhlükələrə əzmi, iradəsi sayəsində sinə gərməklə, maneələri, fitnəkarlıqları dəf etməklə, min bir zəhmətlə, yüksək şövqlə, incə zövqlə kərpic-kərpic qurub-yaratdığı “Müasir, müstəqil, qüdrətli Azərbaycan” adlı şah abidənin hər naxışı uzaqgörən müəllifin zamanı qabaqlayan, onilliklərə hesablanmış bir qətiyyətli addımından, saleh əməlindən, mübarək amalından danışır. Açılan sabah, doğan Günəş özü ilə bərabər, yurda uğurlar, nailiyyətlər gətirib xalqın yolunu aydınlatdıqca abidənin artan məğrurluğu, bu torpaqda doğulmaq, yaşamaq fəxarəti köksləri qürurla etizaza gətirir, dahi memara sonsuz minnətdarlıq hissi ilə dillərdə Ulu Liderin mübarək kəlamı səslənir:* ***“Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”***

1969-cu il iyulun 14-dən binə olunmağa, yaradılmağa başlanan bu əbədiyyət abidəsinin hər zərrəsindən həmişəyaşar müəllifin əziz xatirəsinə ehtiram dolu alqışlar eşidilir, ideyalarına rəğbət dolu nidalar duyulur, yazmaqla tükənməyən, oxuduqca, öyrəndikcə sona yetməyən, bitməyən siyasi-fəlsəfi ideologiyalarla, müdrikliklə zəngin, fəthi mümkünsüz Ulu Öndər zirvəsi görünür hər yerdə hər gün, hər dəqiqə, hər an. Xalqı uçurumdan əbədiyyət zirvəsinə ucaldan bu ulu zirvəyə baxdıqca Azərbaycan, Azərbaycana baxdıqca isə dahi lider Heydər Əliyev zirvəsi canlanır gözlərimiz önündə. Ömrünü xalqının yolunda fəda edən, sadə, zəhmətkeş ailənin övladından xalqın övladı, xalqın lideri, xalqın xilaskarı məqamına ucalan bu dahi insan haqqında hansı sözləri söyləsən, hansı cümləni, söz birləşməsini, xitabı yazsan yenə natamamlıq qalır, yetmir kəlmələrin gücü Onun varlığını tam ifadə etməyə təkcə qüdrətli Azərbaycanın simasında əksini tapır əvəzolunmaz şəxsiyyətin təkrarolunmaz portreti...

“Müasir, müstəqil, qüdrətli Azərbaycan” adlı abidəni seyr etdikcə qəlbdə qaynayan qürur, fəxr, minnətdarlıq, ehtiram dolu kəlmələr dilə gəlir: Böyük siyasətçi, dahi öndərimiz, Ümummilli Liderimiz! Həyat yolun o qədər mənalı, dərin, zəngin, şəxsi keyfiyyətlərin o qədər alidir, tarixi epoxan, siyasi konsepsiyan o qədər dərinməzmunlu, fəlsəfidir, xalqın üçün o qədər dəyərli, böyük işlər görmüsən ki, yazmağa, sadalamağa qələmin gücü yetməz. ***“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”***, ***“Xalq dövlət üçün, dövlət xalq üçün olmalıdır”***, ***“Tarix həmişə hər şeyi öz yerinə qoyur”***, ***“Xalq gərək daim öz kökünü xatırlasın”*** kimi tarixə düşən, tarixiləşən kəlamlarınla hər bir azərbaycanlının əlindən tutub doğru yolu, istiqaməti göstərdin, milli ruhu oyatdın, ana dilinə, mənəvi dəyərlərə bağlılığı hər kəsin mənəvi borcuna çevirdin, xalqla dövlət arasında qırılmaz mənəviyyat körpüsü yaratdın. Qaranlıq gecədə sönməz Günəş kimi Azərbaycan səmasında parlayıb sabaha inam, gələcəyə ümid ziyası saçdın, insanlarla hər görüşündə sadə, səmimi ünsiyyətinlə hər bir ölkə başçısına, dövlət məmuruna xalqın lideri nümunəsini göstərdin, imzaladığın fərman və sərəncamlarla, keçirdiyin çoxsaylı yerli, beynəlxalq görüşlərlə, söylədiyin dərinməzmunlu nitqlərlə xalqın xoşbəxt sabahlarının, gələcəyinin etibarına, təminatçısına çevrildin. “Son yüzillikdə Heydər Əliyev gücündə ağıllı dövlət başçısı Azərbaycanda olmamışdır”, “Heydər Əliyev... iti ağlı, güclü məntiqi, fenomen yaddaşı olan qüvvətli bir şəxsiyyət, sözün həqiqi mənasında, kompüter insandır...” “O nəinki Azərbaycanı və Amerikanı, bütün dünyanı idarə edə bilən dövlət xadimidir” söyləyən dünyanın sayılıb-seçilən dövlət xadimlərinin qibtə etdiyi liderlərin lideri mərtəbəsinə yüksəldin, siyasət dünyasında yeni, əvəzolunmaz məktəb yaratdın, dərs keçdin neçə liderə, ölkə başçısına, bir hərəkətinlə, sözünlə yerini göstərdin özünü üstün sanıb lovğalanmağa çalışan dırnaqarası rəhbərlərə...

***Dahi insan, uzaqgörən şəxsiyyət!*** 1969-1982-ci illərdə uçurumun astanasında olan, geridə qalmış respublikanı ön sıraya apardın. Bütün nailiyyətləri xalqınla birgə, əl-ələ verib əldə etdin, Sən xalqından, xalqın Səndən güc aldı... Daim zəhmətkeşlərlə bir arada oldun, iş gününü kabinetdən çox pambıq, tütün, üzüm tarlalarında keçirdin, əməkçilərə işləmək, halal zəhmət qazanmaq yolunda böyük ruh yüksəkliyi bəxş etdin... Elmin, təhsilin inkişaf mərhələsi kimi də tarixə həkk olundu ölkəmizə rəhbərliyinin birinci dövrü. Uzaqgörən siyasətin nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırıldı. Göstərişinlə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil, mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən, ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alaraq sonralar ölkəmizin aydın sabahları naminə xidmət göstərdilər. Şəhərlərimiz daha da gözəlləşdi, milliləşdi... Mənfurların fitnələrinin üstündən qara xətt çəkdin, əzəli yurdlarımıza səfərlər edib tariximizi, milliliyimizi qoruyub yaşadan işlər, layihələr həyata keçirməklə, tarixi torpaqlarımız, soydaşlarımız arasında qırılmaz mənəvi tellər yaratdın Ağdam-Xankəndi dəmir yolunun çəkilişinə nail olmaqla...

***Mənəvi dəyərlərimizin yaşadıcısı!*** Mədəniyyətimizin hamisi kimi tarixi irsimizi, də yərlərimizi qorudun, yaşatdın, xalqın milli köklərə bağlılığını təmin etdin, sayəndə ayrı-ayrı sahələrin kamil bilicilərinə, görkəmli yazıçılara, incəsənət xadimlərinə abidələr ucaldıldı, yubileylər yüksək səviyyədə qeyd olundu, sənətə dəyər, sənətkara hörmət artdı, müəllim adı ucaldı. Azərbaycanın tarixini, mədəniyyətini, incəsənətini yenidən dirçəltdin, göstərişinlə Şuşada Molla Pənah Vaqifin məzarı üstündə abidə – məqbərə ucaldıldı, Xurşidbanu Natəvana abidə qoyuldu, xalq düşməni damğası vurulan şair-yazıçılara bəraət verildi, adları əbədiləşdirildi, ölməz dramaturq Hüseyn Cavidin nəşi Uzaq Sibirdən gətirilərək doğma Vətəni Naxçıvanda torpağa tapşırıldı, abidəsi yaradıldı, Qarabağda yaşamış tarixi şəxsiyyətlərimizin irsinin qorunması yönündə işlər həyata keçirildi, mədəni tədbirlər reallaşdırıldı. “Kitabi-Dədə Qorqud” eposu ilə bağlı tarixi, ədəbi araşdırmaların sayı çoxaldı, tamaşaçını düşündürən, dəyərli sənət əsərləri – bədii filmlər çəkildi, sənədli ekran əsərləri hazırlandı, ədəbi mühit zənginləşdi... ***“Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir”*** fikirlərini gerçəkləşdirdin, itirilib-batırılmaqda olan milli sərvətimizi yenidən həyata qaytardın. Bütün həyati risklərə, təhlükələrə rəğmən Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasında “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir” ifadəsini həkk etdirməklə xalqın qarşısında növbəti əvəzolunmaz xidmətini böyük cəsarətlə yerinə yetirdin...

***Böyük azərbaycanlı, Böyük türk!*** 1982-87-ci illər... Siyasi fəaliyyəti ölkənin sərhədlərini aşan, Böyük azərbaycanlı, Böyük türk kimi böyük imperiyada böyük söz, nüfuz sahibi olduğun dövr. Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Sovet Hökuməti sədrinin birinci müavini kimi bu illərdə yenə fikrini, düşüncəni xalqının firavanlığını təmin etməyə, diqqətini, qayğını Azərbaycanın inkişafı naminə yönəltdin, qətiyyətli addımlarınla xalqını faciələrdən qorudun. “Kremldə ucalan türk bayrağı” təqdimatı ilə tanındın, sevildin bütün dünya türkləri tərəfindən, türkçülük düşüncəsini, türkçülük faktını SSRİ kimi nəhəng imperiyanın ən ali iyerarxiyasına qədər aparıb çıxartdın... Ermənipərəst dövlət adamlarının gözü götürmədi bir azərbaycanlının, türkün böyüklüyünü, ucalığını, xalqına, elinə, obasına məhəbbətini, hər vəchlə maneələr yaradaraq, fitnələr yağdıraraq önünü kəsməyə, millətindən uzaq salmağa çalışdılar dahi lideri. Siyasi nüfuzundan, qüdrətindən lərzəyə düşən, xəyanətkar Qorbaçov öz qorxaqlığını, yarıtmazlığını göstərdi vəzifədən istefa verməyinə çalışmaqla. Ali kürsüdən gedişindən heç iki həftə keçməmiş nankor ermənilər, onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələni gündəmə gətirdilər... Və beləcə, köməksiz, arxasız qalan xalqımız üçün ağır, məşəqqətli günlər başladı. Xalqımızın tarixinə qara hərflərlə həkk olundu 1990-cı ilin 20 yanvar günü. Qanlı hadisələr zamanı ölkəmizdəki insanların taleyinə biganə qalan naşı rəhbərlərdən fərqli olaraq özü uzaq qəlbi yaxın olan, xalqını canından artıq sevən Ümummilli Lider kimi bütün həyati təhlükələrə, təxribatlara, təzyiqlərə baxmayaraq, Moskvada SSRİ Nazirlər Soveti yanında Azərbaycan SSR-in Daimi Nümayəndəliyinə gedərək faciəni qəti şəkildə pislədin, xalqının yanında olduğunu bir daha bəyan etdin qorxmadan, çəkinmədən...

***Xalqın nicatı!*** 1990-cı il iyulun 22-də doğma Vətənin – canın qədər sevdiyin Naxçıvanın qucaq açdı, bağrına basdı naxçıvanlılar öz xilaskarını, qısa zamanda bu qədim diyar milli azadlıq hərəkatının mərkəzinə çevrildi, rəhbərliyinlə ölkəmiz müstəqilliyə doğru böyük dönüş yoluna məhz Naxçıvandan qədəm qoydu. Dövlətçilik tariximiz üçün xüsusi önəm daşıyan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılmasına, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Ali Məclis adlandırılmasına, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilməsinə nail oldun. Minlərlə naxçıvanlının coşqusu, sevgisi, məhəbbəti ilə 1991-ci il 3 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildin, zülmət qaranlıqda çıraq işartısında verdiyin və dövlətçiliyin hüquqi bazasını təşkil edən mühüm siyasi-tarixi qərarlar xalqımızı gün işığına çıxardı. Siyasi sabitliyə xidmət edən, ölkəmizi inamlı, etibarlı gələcəyə aparan, dünyada qüdrətli söz, mövqe, nüfuz sahibi edən Yeni Azərbaycan Partiyasını təsis etdin. Azərbaycan SSR Ali Sovetinin iclaslarında qətiyyət, cəsarətlilik rəmzinə çevrilən faktlarla zəngin tarixi çıxışlarını bu gün də televiziya ekranlarından böyük qürurla, fəxarətlə izləyərək deyirik: Odur xalqın əsl nicatı!..

***Milli Qurtuluşun banisi!*** Məhvə sürüklənən xalqının taleyinə biganə qalmadın, harayına səs verərək 1993-cü ilin iyunun 15-də Naxçıvandan Bakıya gəldin, Milli Qurtuluşun banisinə, səbəbkarına çevrildin, rəhbərliyinlə ölkənin taleyində əsaslı dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Milli ordu formalaşdırıldı, Azərbaycanın milli mənafelərini, ərazi bütövlüyünü qorumağa qadir nizami silahlı qüvvələr yaradıldı, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, atəşkəsə nail olundu. Müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasını işləyib hazırladın, 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi” adlandırılan ilk neft müqaviləsini imzalamaqla, aqrar sahədə islahatlar reallaşdırmaqla ölkəmizin dünya miqyasında siyasi-iqtisadi çəkisini artırdın, hərtərəfli inkişafına zəmin yaratdın, ***“Mənim üçün öz həyatımdan, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir”***, – deyərək ölkədə xaos, hərc-mərclik, parçalanma yaratmağa cəhd edən qüvvələrin arzusunu gözündə qoydun, həyatımızın bütün sahələrində canlanma prosesləri yaradan qərar, sərəncam və fərmanlar imzaladın, qurultaylar, forumlar keçirdin. Təşəbbüsünlə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair mötəbər beynəlxalq konfrans keçirildi, bununla bu gün “Orta Dəhliz” adlanan “Avropa-Qafqaz-Asiya” layihəsinin bünövrəsi qoyuldu, bu dəhlizin Azərbaycan ərazisindən keçməsi şərtləndirildi. 1993-2003-cü illərdə Azərbaycanda həyatın o sahəsi olmadı ki, orada inkişafa, yeniliyə imza atmayasan: Can verən təbiətimizə can gəldi, “Təbiət qəbiristanlığı” ifadəsini “cənnətməkan diyar” xitabları əvəzlədi... Bütün dünyada yaşayan azərbaycanlılar üçün birləşdirici faktor olan Azərbaycançılıq ideologiyasının banisinə çevrildin, dünya azərbaycanlılarını bir araya topladın, təşəbbüsünlə neçə-neçə sənətkarların, sənət ocaqlarının, elm adamlarının, yaradıcı insanların yubileyləri keçirildi, adlarına müəssisələr yaradıldı, elm, təhsil ocaqlarının müstəqilliyi təmin olundu, əməyə qiymətin nəticəsi olan fəxri adlar, ordenlər, medallar təsis edildi, sözün qüdrəti, kəsəri, əməlin dəyəri, qiyməti artdı. Ən əsası isə min bir zəhmətlə ucaltdığın “Müasir, müstəqil, qüdrətli Azərbaycan” adlı şah abidəni qoruyacaq, yaşadacaq, inkişaf etdirəcək layiqli varisini, cənab İlham Əliyevi – əsl lideri qazandırdın xalqına. ***“...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”*** inamını, etibarını heç vaxt yanıltmadı, siyasi irsinə, yoluna sədaqətini ən yüksək səviyyədə göstərdi, xalqı irəli aparacaq əsl rəhbər olduğunu sübut etdi 2003-2023-cü illərdə cənab İlham Əliyev...

***Şanlı nailiyyətlərə, Böyük Qələbəyə aparan Ulu Öndər yolu!*** Mübarək yoluna sədaqətlə, əbədiyaşar ideyalarının işığında ölkəmiz, xalqımız qızıl hərflərlə növbəti şanlı tarix səhifələrini yazmağa başladı 2003-cü ildən. Siyasi arenalarda diplomatik qələbələrin, iqtisadi, sosial, mədəni sahələrdə, elm və təhsildə uğurların sayı hər ötən il daha da çoxaldı. Kompleks, sistemli şəkildə reallaşdırılan, bütün sahələri əhatə edən geniş islahatlar konsepsiyası şəhər-kəndlərimizi başdan-başa dəyişdi, gözəlləşdirdi, müasirləşdirdi, insanların sosial-rifahı yaxşılaşdı, əmək, zəhmət adamlarının əməyi, zəhməti çiçək açdı... Ən əsası da illərlə davam edən siyasi-diplomatik gedişlər, ordu quruculuğu nəticəsini verdi, Ali Baş Komandanın siyasi-iradəsi, oğulların igidliyi sayəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə əzəli torpaqlarımıza qovuşduq əbədi şəkildə. ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir”*** vəsiyyətini yerinə yetirən ölkə başçısı cənab İlham Əliyevin hər bir azərbaycanlını ayağa qaldıran mübarək kəlamları Böyük Qələbəmizin simvoluna çevrildi: ***“Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”*** 24 saatlıq antiterror tədbirləri ilə bərpa olundu suverenliyimiz, təmin edildi ərazi bütövlüyümüz. Artıq Qarabağımızın hər qarışı dirçəlir, yenidən doğulur, müasir görünüşü ilə öz övladlarını qoynuna alır, adət-ənənələrimiz, tariximiz, genetik yaddaşımız bərpa olunur. Müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün rəmzi sayılan üçrəngli bayrağımız ucalır Qarabağda, Şərqi Zəngəzurda, Şuşada, Laçında, Xankəndidə, Xocalıda...

***Dahi Öndərimiz, Ümummilli Liderimiz!*** *İllər öncə yaratdığın, hər naxışında müdrikliyinin, fədakarlığının duyulduğu, müqəddəs amallarının yaşadığı “Müasir, müstəqil, qüdrətli Azərbaycan” adlı şah abidə bu gün dünyanın istənilən nöqtəsindən daha məğrur, daha yenilməz, daha əzəmətli, daha vüqarlı görünür. Üzərinə möhürlədiyin əbədiyaşar əməllərini ifadə edən sözlər hər gün daha da əbədiləşir, daha da parlaqlaşır:* ***“Nə qədər ki Azərbaycan var, mən də varam! Mən isə Azərbaycanda əbədi olacağam”.***

**Nail ƏSGƏROV**

# Qalib Lider, Müzəffər Ali Baş Komandan
## *İlham Heydər oğlu Əliyevin prezidentlik fəaliyyətinin 20 illiyi ilə bağlı tədbirlər keçirilib*



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində təşkil olunan tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, polkovnik Şahin Mirzəyev Prezident cənab İlham Əliyevin son 20 ildə gördüyü böyük işlərdən, bütün sahələrdə qazanılan uğurlardan danışıb.

Qeyd olunub ki, son 20 il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olub. Azərbaycanın zəngin iqtisadi, siyasi, elmi, mədəni və hərbi potensialı yaradılıb.

Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə əbədi yazıldı. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Bu il sentyabrın 19-da qəhrəman ordumuzun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri ilə qarşıya qoyulan hədəflərə cəmi 24 saatda nail olunması Azərbaycanın növbəti tarixi Qələbəsidir. Bu, bir daha göstərir ki, Azərbaycan regionda sülh və sabitliyin əsas təminatçısıdır. Bu, eyni zamanda Prezident cənab İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi, dövlətimizin başçısının ətrafında "dəmir yumruğ"a çevrilən xalqımızın daha bir tarixi Zəfəri oldu. Bütün bu nailiyyətlərin təməlində Ulu Öndər Heydər Əliyevin başlatdığı və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır.

Sonra çıxışlar dinlənilib, cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci illiyinə həsr olunan videoçarx nümayiş etdirilib.



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində "Azərbaycan tarixinin ən şanlı səhifələrinin yazıldığı 20 il" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov tədbiri giriş sözü ilə açaraq bildirib ki, Prezident cənab İlham Əliyev ötən 20 il ərzində müstəqil, güclü Azərbaycan dövlətinin davamlı tərəqqisini təmin, Vətən müharibəsində parlaq qələbə ilə torpaqlarımızı 30 illik erməni işğalından azad etməklə müasir tariximizin qızıl səhifələrini yazıb.

Hüseyn Səfərov bildirib ki, Azərbaycan xalqı hər zaman onu ön planda tutan liderimizin ətrafında sıx birləşərək, müasir tariximizin uğurlu sərkərdəsi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə hələ çox uğurların sevincini yaşayacaq, yeni-yeni möhtəşəm qələbələrin şahidi olacaq.

Tədbirdə Nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi Səttar Zamanov, Qanunvericilik bölməsinin rəisi Ayaz Məhərrəmov və Nazirliyin əməkdaşı Reyhanə Əsgərova çıxış edərək bildiriblər ki, ötən 20 il ərzində dövlət başçısının həyata keçirdiyi tədbirlər çərçivəsində ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunub, ədliyyə işi beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılıb, gələcək inkişafına dair əhatəli Dövlət proqramları qəbul edilib.

Sonda cənab İlham Əliyevin 20 illik fəaliyyətini əks etdirən sənədli filmə baxış olub.



Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyində "Əsrin lideri, Müzəffər Ali Baş Komandan" mövzusunda keçirilən tədbirdə çıxış edən muzeyin direktoru, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev Heydər Əliyev siyasi kursunun layiqli məzunu kimi Prezident cənab İlham Əliyevin siyasi hakimiyyət dövrünün başlanğıc tarixi, Ümummilli Liderin gənc siyasətçiyə olan etimadı barədə məlumat verib.

Gənclər və idman naziri səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov gənclərə daim dəstək olan, güvənən, onlara liderlik keyfiyyətləri aşılayan Prezident cənab İlham Əliyevin 20 illik siyasi hakimiyyəti dövründə Azərbaycanın misilsiz inkişaf yolu qət etdiyini və ölkə başçısının xalqa verdiyi vədləri, qarşısındakı hədəfləri bütünlüklə yerinə yetirdiyini bildirib. Qeyd olunub ki, bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Prezident cənab İlham Əliyevin çoxşaxəli fəaliyyəti nəticəsində sağlam, müasir, vətənpərvər gənclik modeli formalaşdırılıb. Heç təsadüfi deyil ki, cənab İlham Əliyevin prezidentlik dövründə yetişən gənclər 44 günlükVətən müharibəsində böyük şücaət, qəhrəmanlıq göstərərək tarixi Zəfərdə pay sahibi oldu. İndi bütün gənclərimiz xalqımızın ətrafında sıx birləşdiyi lider vasitəsilə qələbə ruhunun, haqq mübarizəsinin nəticələrini dünyaya bəyan edir.

Fəal gənc Elmar İsgəndərov Azərbaycan gəncinin Prezident cənab İlham Əliyevin liderliyi ilə qazandığı nailiyyətlərdən bəhs edib.

Tədbirdə Prezident cənab İlham Əliyevə həsr olunmuş sənədli film nümayiş etdirilib, iştirakçılar muzeyin ekspozisiyası ilə tanış olublar.



*Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində təşkil olunan tədbir Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev zəngin və qüdrətli Azərbaycan uğrunda çağırışı ilə milyonları öz ətrafında toplayaraq yürütdüyü siyasət nəticəsində Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesini uğurla həyata keçirdi. Son 20 ilin uğurları, tarixə yazdığı möhtəşəm qələbələri deməyə əsas verir ki, dövlətimizin başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaqla Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdıra bilmişdir.

Məruzə ətrafında çıxışlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanın bu günü və sabahı naminə həyata keçirdiyi mühüm işlərdən danışılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində keçirilən tədbirdə komitənin sədri Hüseyn Bağırov çıxış edərək bildirib ki, son dövrlər ölkəmizin suverenliyi istiqamətində atılan zəruri addımlara və qazanılan uğurlara mühüm tarixi hadisə kimi şahidlik edirik. Heç şübhəsiz ki, qazanılmış bu uğurlar Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və onun layiqli davamçısı – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin gərgin və qətiyyətli fəaliyyəti nəticəsində əldə olunmuşdur.

Ölkəmizin kompleks inkişafı məqsədilə həyata keçirilən mühüm tədbirlərlə bərabər, regionların sosial-iqtisadi inkişafı məqsədilə qəbul edilmiş 4 Dövlət Proqramının uğurlu icrası inkişafın yeni modelini müəyyən etmişdir. Vurğulanıb ki, ordu quruculuğu istiqamətində aparılan məqsədyönlü tədbirlərin nəticəsi olaraq 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz tarixə qızıl hərflərlə Zəfər salnaməsi yazmış, eyni zamanda bu ilin sentyabr ayında Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri sayəsində suverenliyimizin tam təmin olunması ilə Azərbaycan gücünü bir daha bütün dünyaya nümayiş etdirmişdir.



Qeyd olunub ki, Ali Baş Komandan cənab İlham Əliyevin Sərsəng su anbarına, Xocalı, Əsgəran, Ağdərə və Xankəndinə səfəri və Dövlət Bayrağımızın həmin yerlərdə qururla ucaldılması, müstəqil Azərbaycanımızın qarşısındakı növbəti hədəflərə çatması üçün inamlı zəmin yaradıb.

Tədbirdə komitənin şöbə müdirləri Rəhim Əsgərov və Pərvin Hacıyevin mövzu ilə bağlı çıxışları dinlənilib.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 illik fəaliyyətini əhatə edən videoçarx izlənilib.



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində keçirilən tədbirdə Xidmətin rəisi Müslüm Cabbarzadə çıxış edərək bildirib ki, dövlətçilik tariximizin son 20 ili dinamik və hərtərəfli inkişaf dövrü, iqtisadi güc və hərbi potensialın yaradılması, böyük uğurlar, möhtəşəm qələbələr, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə xarakterizə edilir.

Vurğulanıb ki, Prezident cənab İlham Əliyevin təşəbbüskarlığı və müdrik rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar çərçivəsində ölkəmizdə əmlak idarəçiliyi sahəsində də innovativ layihələrin, modern yanaşmaların tətbiqi diqqətdə saxlanılıb, dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı mühüm irəliləyişlər əldə olunub. Qeydiyyat prosesinin sadələşdirilməsi, xidmətlərə olan əlçatanlığın artırılması nəticəsində beynəlxalq hesabatlarda Azərbaycan əmlak idarəçiliyi sahəsində ön sıralarda yer alıb.

Muxtar respublikamızda torpaq və digər daşınmaz əmlak obyektləri üzərində mülkiyyət hüquqlarının qeydiyyata alınması və müdafiəsi sahəsində işlərin daha səmərəli təşkilinə 2004-cü ildən başlanıldığını qeyd edən Xidmət rəisi müvafiq sahədə idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin rəqəmsallaşdırılması, torpaqların elektron uçotunun aparılması ilə bağlı görülmüş işlərdən bəhs edib.

Sonra Xidmətin əməkdaşı Arzu Məmmədovun mövzu ilə bağlı çıxışı dinlənilib. Tədbirin sonunda 20 illik tarixi dövr ərzində Prezident cənab İlham Əliyevin uğurlu siyasi fəaliyyətindən bəhs edən sənədli filmə baxış olub.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov bildirib ki, ***"Yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir"***, – deyən Ümummilli Liderimiz Heydər Əliyevin yolu, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla, davam etdirilir. Diqqətə çatdırılıb ki, 2003-2023-cü illər ərzində yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalı üçün zəmin yaradılıb, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilib.

Qeyd olunub ki, 2003-2023-cü illər ərzində muxtar respublika ərazisində 992,61 kilometr avtomobil yolu yenidən qurulub və ümumi uzunluğu 611 pikometr olan 50 körpü inşa edilib.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın avtomobil yol işçilərinin əməyi dövlətimiz tərəfindən ötən dövr ərzində yüksək qiymətləndirilib. Belə ki, onlardan 11-i "Tərəqqi" medalı, 17-si "Rəşadətli əməyə görə" nişanı, eləcə də bir sıra əməkdaşlar fəxri fərman və yubiley medalları ilə təltif edilib.



*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasında "Azərbaycanı yüksəlişə və zəfərlərə aparan Lider" mövzusunda tədbir keçirilib.*

Tədbirdə çıxış edən Televiziya və Radio Şurasının sədri Rauf Əliyev bildirib ki, bu gün Ulu Öndərin siyasi xəttini hər sahədə uğurla davam etdirən dövlətimizin başçısı hər bir azərbaycanlının rəğbət bəslədiyi Prezident kimi bütün dünyada böyük nüfuz qazanmış ölkə rəhbəridir. Dövlətimizin başçısının həyata keçirdiyi inkişaf konsepsiyası nəticəsində transmilli layihələr reallaşdıran Azərbaycanın iqtisadiyyatı, ordusu güclənib, insan kapitalı, elmi potensialı formalaşıb, ölkəmiz regionda liderə, beynəlxalq aləmdə söz sahibinə çevrilib.

Rauf Əliyev vurğulayıb ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycanın mərd oğulları Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünü bərpa ediblər.

Televiziya və Radio Şurasının üzvü Sara Əzimova çıxışında Prezident cənab İlham Əliyevin ölkəmizin inkişafındakı, yüksəlişindəki misilsiz xidmətlərini vurğulayıb.

Digər çıxış edənlər bildiriblər ki, ötən 20 il ərzində Prezident cənab İlham Əliyevi dəstəkləyən naxçıvanlılar da dövlətimizin başçısı ilə fəxr edir. O, tarix yazaraq, bizə milli birliyimizi, bütövlüyümüzü, köklü dəyərlərimizi, qürurumuzu, mənliyimizi qaytarıb, böyük sevinc yaşadıb.



Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində keçirilən tədbiri giriş sözü ilə açan Departamentin direktoru Əkbər Novruzov bildirib ki, ölkəmiz XXI əsrə bütün istiqamətlərdə sürətli inkişaf tempi ilə qədəm qoyub. Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı sağlam və möhkəm təməl üzərində Prezident cənab İlham Əliyevin inşa etdiyi güclü və müasir Azərbaycan bir çox taleyüklü problemləri geridə qoyaraq, gələcəyə doğru inamla addımlayan ölkələr sırasında öz layiqli yerini tutub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda bütün sahələrin inkişafı ilə yanaşı, turizmin inkişafı da prioritet sahələrdən biri kimi qeyd olunub. Naxçıvan Muxtar Respublikasının duz yataqları, mineral suları, tarixi və dini abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlərin görülməsi nəzərdə tutulur.

Sonra çıxış edən Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Saleh Quluyev bildirib ki, 20 il əvvəl cənab İlham Əliyevin prezidentlik fəaliyyətinə başlaması xalqımızın Heydər Əliyev ideyalarına verdiyi dəyərin, bu siyasətə dəstəyinin aydın ifadəsi idi.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyət illərini əks etdirən videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

# Ulu Öndər Heydər Əliyevin 100 illiyi və 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş fərdi sərgi

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Sabir Məmmədovun Ulu Öndər Heydər Əliyevin 100 illiyi və 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş fərdi yaradıcılıq sərgisi keçirilib.*





“Azərbaycanın Papa Karlosu” adlı sərginin açılışında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək Ümummilli Lider Heydər Əliyevin şərəfli həyat yolu və Azərbaycan xalqına göstərdiyi müstəsna xidmətlərdən söhbət açıb. Vurğulayıb ki, görkəmli dövlət xadimi ölkəmizə rəhbərliyi dövründə həyatımızın bütün sahələri ilə yanaşı incəsənətin də inkişafını diqqətdə saxlayıb, bu sahədə fəaliyyət göstərən sənət adamlarının əməyini yüksək qiymətləndirib. Ülviyyə Həmzəyeva müəllifi fərdi sərgisi münasibətilə təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Tural Rzayev çıxış edərək bildirib ki, dövlətimizin başçısı tərəfindən digər istiqamətlərdə olduğu kimi, mədəniyyət sahəsinin inkişafına da böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, mədəniyyət sahəsində əsaslı islahatlar aparılır, milli-mənəvi dəyərlərimizin inkişafı prioritet istiqamət kimi götürülür. Ölkə Prezidenti tərəfindən sənət adamlarının əməyinin yüksək qiymətləndirilməsi, orden və medallarla təltif olunması, Prezident təqaüdünə layiq görülməsi, sosial vəziyyətlərinin yaxşılaşdırılması bu sahədə aparılan məqsədyönlü siyasətin bariz nümunəsidir.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Naxçıvanda da həyatın bütün sahələrində böyük inkişaf müşahidə olunur. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan özünün yeni intibah dövrünü yaşayır. Belə bir əlamətdar gündə və ildə Sabir Məmmədovun rəsm əsərlərindən və əl işlərindən ibarət fərdi yaradıcılıq sərgisinin açılması Vətəninə, xalqına, dövlətinə ləyaqətlə xidmət edən dahi şəxsiyyət, Ümummilli Liderimiz Heydər Əliyevə olan xalq sevgisinin, sənətkar ehtiramının nəticəsidir.

Tədbirdə Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev, iqtisadiyyat naziri Tapdıq Əliyev, “Naxçıvan” Universitetinin rektoru Anar Kazımov, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev və başqaları çıxış edərək rəssamın çoxşaxəli yaradıcılığı barədə danışıblar.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Sabir Məmmədov əsərlərinin yaradıcılıq xüsusiyyətlərindən söz açıb, mədəniyyətin inkişafına, milli-mədəni irsimizin yaşadılması və təbliğinə, sənət adamlarına göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib.

Qeyd edək ki, sərgidə müəllifin Ulu Öndər Heydər Əliyevin 100 illiyi və 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr etdiyi 170 əsəri təqdim olunub. Eyni zamanda rəssamın dekorativ-tətbiqi sənət, taxtadan əl işləri və mis üzərində döymə nümunələri də sərgidə yer alıb.

Sonda sərgiyə baxış olub.

**✍ Bülbül QULİYEVA**

# Muxtar respublikada 8 minə yaxın daşınmaz əmlak obyektinin qeydiyyatı aparılıb

Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, eləcə də vətəndaşların rahatlığının təmin edilməsi 2023-cü ilin doqquz ayı ərzində Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqət mərkəzində saxlanılıb.

Muxtar respublika üzrə yanvar-sentyabr ayları ərzində 7 min 994 daşınmaz əmlak obyekti dövlət reyestrində qeydiyyata alınıb ki, bu göstərici də ötən ilin müvafiq dövrü ilə müqayisədə 49,7 faiz çoxdur. Ümumi göstəricinin 2 min 737-si ilkin, 5 min 257-si isə təkrar qeydiyyatdır.

Ötən 9 ayda dövlət reyestrində qeydiyyata alınan daşınmaz əmlak obyektlərindən 3 min 131-i fərdi yaşayış evi, 2 min 888-i torpaq sahəsi, 1421-i mənzil, 257-si qeyri-yaşayış sahəsi, 210-u qeyri-yaşayış binası, 83-ü əmlak kompleksi kimi müəssisə, 4-ü isə çoxmərtəbəli yaşayış binası olub. Əmlakların 3 min 620-si və ya 45,2 faizi Naxçıvan şəhəri üzrə, qalanı isə muxtar respublikanın rayonları üzrə qeydiyyata alınıb.

Hesabat dövründə 2 min 612 əmlaka dair texniki pasport hazırlanıb, 3 min 347 torpaq sahəsinin planı-ölçüsü tərtib olunub. Beləliklə, ümumilikdə, 5 min 959 daşınmaz əmlak obyektinin texniki inventarlaşdırılması aparılıb ki, bu da 2022-ci ilin müvafiq dövründəki göstəricidən 51,7 faiz çoxdur.

Daşınmaz əmlakın dövlət reyestrindən məhdudiyyət və yüklülüyə dair 3 min 219 arayış verilib, 3 min 398 əmlaka dair məhdudiyyət və yüklülük haqqında məlumat elektron informasiya sistemi vasitəsilə notariat ofislərinə göndərilib. Bu dövr ərzində qeydiyyata alınan ipoteka müqavilələrinin sayı isə 834-ə çatıb.

42 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 3 ailə təsərrüfatının icarəsinə verilən torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

# İstehlakçılara 553 min manatdan çox ƏDV məbləği geri qaytarılıb

Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti tərəfindən yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində işlər davam etdirilir. 2023-cü il 1 oktyabr tarixinə muxtar respublika ərazisində 1980 ədəd yeni nəsil nəzarət-kassa aparatı quraşdırılıb. Yanvar-sentyabr aylarında belə NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 145,8 milyon manat olub. Həmin dövr ərzində “ƏDV geri al” layihəsi çərçivəsində istehlakçılara 553,2 min manatdan çox, təkcə sentyabr ayında isə 90,8 min manat ƏDV məbləği geri qaytarılıb. Yanvar ayı ilə müqayisədə sentyabr ayında istehlakçılara qaytarılan məbləğ 4,3 dəfə artıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Naxçıvandan Şimali Kiprə aparan yaradıcılıq yolu

Azərbaycan xalqını dövrün keşməkeşi, çətin sınaqlarından çıxarmağı bacarmış bugünkü müstəqil Azərbaycanın xilaskarı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il “Heydər Əliyev İli” kimi tarixə düşəcək. Görkəmli liderin əziz xatirəsinə həsr olunmuş 100 illik yubiley tədbirləri ölkə sərhədlərini aşaraq dünyanın bir çox ölkəsində yüksək səviyyədə qeyd olunur. Bu baxımdan gənc rəssam Aidə İbrahimovanın Şimali Kipr Respublikasında baş tutan rəsm sərgisinin əhəmiyyətini də vurğulamaq lazımdır.





Naxçıvan Dövlət Universitetinin Rəngkarlıq ixtisası üzrə III kurs tələbəsi, “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuş, “Şərq qapısı” qəzetinin əməkdaşı Aidə İbrahimovanın rəsm sərgisi sənətsevərlər tərəfindən maraqla qarşılanıb. Məlumat üçün qeyd edək ki, 30-dan artıq müxtəlif janrlarda əsərlərin nümayiş edildiyi sərgidə Şimali Kipr Respublikasının prezidenti Ersin Tatar iştirak edib. Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən sərginin təəssüratlarını isə gənc rəssamdan öyrənirik:



“İkigünlük səfər çox əhəmiyyətli, tarixi bir görüş oldu. Ümummilli Liderin 100 illiyinə həsr olunmuş bu sərginin təşkili və reallaşması qürurverici idi. Çünki azərbaycanlı bir rəssam kimi əsərlərimlə ölkəmizi xaricdə təmsil etmək böyük məsuliyyət tələb edirdi. Həm də qürurluyam ki, bu cür tarixi əhəmiyyətli ildə – “Heydər Əliyev İli” çərçivəsində keçirilən silsilə tədbirlərdən biri də məhz bu sərgi oldu.

Sərgidən öncə Lefkoşa şəhərində Prezident Ersin Tatar bizi qəbul etdi. Görüş zamanı Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrin genişləndirilməsindən və xalqlarımız arasında humanitar, mədəniyyət, təhsil, idman sahələrində əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olmasından məmnunluq ifadə edildi. Şimali Kiprin dövlət başçısı görüşdə iki dövlət arasındakı mədəni-siyasi əməkdaşlığın inkişafı istiqamətində mühüm tədbirlər görüldüyündən bəhs etdi. Prezident onu da qeyd edib ki, Kipr türkləri daim azərbaycanlıların yanında olub. Azərbaycanın da həmişə Türk dünyasının sıx birliyinə verdiyi töhfələrin davamlı xarakter daşıdığı və bundan sonra da bu amallara sadiq qalacağı vurğulandı.

Müsahibimiz deyir ki, görüşdən sonra axşam saatlarında Şimali Kiprin Girne şəhərində sərginin açılışı reallaşdı. Açılışda Prezident Ersin Tatar iştirak etdi və lenti kəsdi. Bu, bir gənc azərbaycanlı rəssam kimi mənə sonsuz sevinc və fəxarət hissi yaşatdı. Sərgilənən bütün əsərlərə baxılıb müzakirə edildi.

Prezidentə bəyəndiyi əsərlərimdən birini – “Xanəgah türbəsi”nin rəsmini təqdim etdim. Onu da qeyd edim ki, Heydər Əliyev Beynəlxalq Mədəniyyət Mərkəzində baş tutan sərginin yüksək səviyyədə təşkilində Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin, xüsusilə də Cəmiyyətin sədri, həmyerlimiz Orxan Həsənoğlunun əməyi ayrıca vurğulanmalıdır. Görüşdə bizimlə birlikdə bir neçə həmyerlimiz də iştirak edirdi. Bu, azərbaycanlıların həmrəyliyinin, təəssübkeşliyinin bariz sübutu idi”.



Aidə xanım qeyd edir ki, Şimali Kiprdə Azərbaycan, Türkiyə və Şimali Kipr Türk respublikalarının bayraqlarının birgə dalğalandığını görmək qürurverici hadisə idi. Ölkə hüdudlarından kənarda qurum və təşkilatların həyata keçirdiyi möhtəşəm tədbirlərdən birinin də bu sərgi olması böyük iftixar hissi bəxş etdi. Nəinki Azərbaycan xalqı, bütün Türk dünyası Ümummilli Liderə sonsuz ehtiram və sayğı göstərir. Dövlət başçısı və digər rəsmi şəxslərin sərginin təşkili, açılışı və gedişatında yaxından iştirak etməsi, keçirilən tədbirin ölkə səviyyəsində işıqlandırılması bunun ən aydın təzahürü idi.

Gənc rəssam bundan sonrakı planlarını da bizimlə bölüşdü: “Mənim üçün böyük motivasiya mənbəyi və təcrübə olan bu sərgini müxtəlif ölkələrdə daha da genişləndirilmiş formada reallaşdırmağı arzu edirəm. İlin sonuna kimi isə sərgiyə daxil olan əsərlərin sayını artırmaqla məmləkətimizdə də bu sərgini reallaşdırmağı planlayıram. Hər zaman istedadlı gənclərin fəaliyyətini dəstəkləyən, bizləri bu yolda tək qoymayan dövlətimizə minnətdarlığımızı bildiririk”.

**✍ Aysel YUSİFZADƏ**

# Elan

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Müəllimlər İnstitutu aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir:

***I.Kafedra müdiri vəzifəsi:***

*-Pedaqogika və psixologiya kafedrası*

*-Riyaziyyat və tədrisi metodikası kafedrası*

*-Ali riyaziyyat və informatika kafedrası*

***II. Kafedralar üzrə digər vəzifələr:***

*Pedaqogika və psixologiya kafedrası üzrə:*

-Dosent –1 yer (0,5 ştat)

-Baş müəllim –1 yer (1 ştat)

-Müəllim –1 yer (1 ştat)

*Ali riyaziyyat və informatika kafedrası üzrə:*

-Dosent –1 yer (1 ştat)

-Baş müəllim –1 yer (1 ştat)

-Müəllim –1 yer (0,5 ştat)

*Azərbaycan dili və ədəbiyyat kafedrası üzrə:*

-Müəllim –1 yer (0,5 ştat)

*Xarici dillər və tədrisi metodikası kafedrası üzrə:*

-Dosent –1 yer (0,5 ştat)

-Müəllim –1 yer (1 ştat)

-Müəllim – 1 yer (0,5 ştat)

*Humanitar və ictimai fənlər kafedrası üzrə:*

-Baş müəllim –1 yer (1 ştat)

-Müəllim – 2 yer (hər biri 0,5 ştat)

*Ümumi fənlər kafedrası üzrə:*

-Müəllim –1 yer (0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud təlimati tələblərə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, Naxçıvan Müəllimlər İnstitutu,Rektorluq***

## İtmişdir

Babək rayon, Babək qəsəbə sakini Eyvazova Afərim Əli qızının adına olan JN-88A, 10301018 kodlu torpaq sahəsinin qaiməsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində Əliyev Vəli Zeynal oğlunun adına verilmiş JN-1357A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 619